

**Çingiz ABDULLAYEV,**
*texnika elmləri namizədi*

# Dünya mədəniyyəti kapitalizmin təsiri ilə

*Kapitalizm dövrünün sosial siyasi məhdudiyyətləri və əksdurması öz əksini onda tapırdı ki, Avropa cəmiyyətinin bütün təbəqələri mədəniyyətin, elm və texnikanın nailiyyətlərindən eyni səviyyədə istifadə edə bilmirdilər. Bu problemlərin həllinə dövlət quruluşu sistemində təhsilə xüsusi yer yaratmış Avropa dövlətlərinin daxili siyasəti köməklik etmişdir. Qərbi Avropa ölkələri özlərinin sosial mədəni siyasətində qeyd etmişdilər ki, hər bir dövlətin gələcəyi savaddan və gəncliyin əqlinin inkişafından asılıdır.*

Bu strateji məsələnin həlledici mənası Avropa və ABŞ-da XIX əsrin sonunda ümumi ibtidai təhsilin qəbul olunması oldu. Təhsilin əsas məqsədi müxtəlif sahələr üçün peşəkar mütəxəssislərin hazırlanması deyildir. İbtidai əql ilə elmi əql arasında məsafəni azaldaraq, o sosial həmrəyliyin artımını və Avropada iqtisadi mədəniyyətin inkişafının artımını yaradırdı. Təhsil müddətində əldə edilmiş bilik və təcrübə xalqa mədəniyyətin nailiyyətlərindən istifadədə yeni imkanlar yaradırdı. Bununla yanaşı inkişafda olan kapitalizmin təhsil sisteminə avtoritar hakimiyyətin əks rəyinin tanınmış təsiri məlumdur. Bu ondan ibarət idi ki, bir tərəfdən dövlət yaradıcı insanların, tənqidi düşünməyi, düzgün qiymət verməyi, sərbəst qərar qəbul etməyi bacaran alimlərin, mütəxəssislərin hazırlanmasında maraqlı idi. Digər tərəfdən o yaradıcı insanların dövlət avtoritetinə, çinovnikə tabe olmasında maraqlı idi. Yaradıcı insanların əmələ gəlməsində bir tərəfdən istək, digər tərəfdən onları digərlərinə tabe edərək yaradıcılıqlarının boğulması millətin sosial mədəni həyatının inkişafına mənfi təsir göstərdi. Bu əksdurma demokratik kapitalizmin sonrakı inkişaf mərhələlərində yavaş-yavaş aradan götürülürdü. Kapitalizm cəmiyyətində sosial əksdurmanın həlli məqsədilə, inqilabın alternativi kimi siniflər və sosial qruplar arasında əməkdaşlıqda maraqlı olan sosial reformaların evalyusiya yolu seçildi.

XIX əsrin ikinci yarısının, XX əsrin əvvəllərinin elmi açılışları dünyanın yeni görünüşünün əmələ gəlməsinə şərait yaratdı. Elm Yerdə həyatın yaranması, səma və zaman, materiyanın və hərəkətin yaranması, təbiətin inkişafı qanunları və insan haqqında təsəvvürlərə yeniliklər gətirdi. Çarlz Layelin, Çarlz Darvinin, Ernest Gekelin və Georgiy Mendel kimi dahi alimlərin əməkləri maariflənmiş dünyanın mərkəzi düşüncəsini insanın və təbiətin yaranmasına cəmlənməsinə yönəltdi. İnkişafın yeni bilikləri və texnologiyası nəinki Avropa xalqlarının, hətta bütün insanlığın istifadəsində idi. Onlar obyektiv olaraq müxtəlif ölkələrin ümumi mədəni səviyyəsinin və intellektual gücünün inkişafına köməklik etmişdir. Avropada mədəni inkişafın vacib tarixi mənası bunda idi. Maksvelin, Mendeleyevin, Rentgenin, Eynşteynin, Kyürinin, Borun, Rezerfordun və digərlərinin yeni açılışları ilə varlanmış dünyanın yeni elmi xəritəsi Yeni zamanın demokratik mədəniyyətinin ən ciddi qazancı idi. Xalqın dünyagörüşünün artmasında böyük rolu olan maarifçilik güclü inkişaf etməyə başladı. Bu Köhnə və Yeni Dünyanın İngiltərə, Fransa, ABŞ və digər dövlətlərində mühazirələrin oxunması vasitəsilə həyata keçirilirdi. Bununla yanaşı Avropa və ABŞ-da məktəblər, böyüklər üçün kurslar, universitetlərdə məşhurlaşdırma bölmələri, «xalq universitetləri», axşam və bazar günü məktəbləri geniş yayılmışdır. Motivasiyasından və iştirakçılardan asılı olmayaraq bu kurslar Avropa xalqının maarifçilik gücünü artırırdı. Elmi biliklər, elm və texnikanın nailiyyətlərinin mənimsənilməsi sahəsində insanın bacarığını və imkanlarını, onların inkişafını nisbətən artırdı. Bütün bu faktorlar Yeni zamanda demokratik mədəniyyətin evalyusiyasına böyük təsir etmişdir.



Məlum olduğu kimi Almaniya, 1921-ci ildə Kayzer dövləti oldu. Bu zaman Almaniya qüdrətli iqtisadiyyata malik idi və dünyanın başqa dövlətləri ilə sıx əlaqə saxlamaq istəyirdi. Bu zaman məşhur «Simens» firması Azərbaycanın Gədəbəy rayonundakı mis mədəni sahibi oldu. Bu dövrdə Gədəbəy mis mə'dəni ölkədə istehsal olunan misin 70% -ni verirdi. Gədəbəydə eyni zamanda misəritmə zavodu da tikilir. Bu zavodun filialı isə Gədəbəyin yaxınlığında Qalakənddə salınmışdı. Azərbaycanda yeganə zavod olan bu misəritmə zavodu Rusiyada da tanınırdı. Misdən başqa burada qızıl da çıxarılırdı. Burada qızıl mislə əridilərək «mis» adı ilə Almaniyaya göndərilirdi…

Bu kiçik ərazidə o zaman 300-ə qədər alman ailəsi yaşayırdı. Onlar burada mədənlərdə və misəritmə zavodunda çalışırdılar. Bu zaman artıq alman dili azərbaycan diliylə birlikdə Simens qardaşlarının zavod və mədənlərində işçi dili hesab olunurdu. Gədəbəy arxivində alman dilində saxlanan xeyli sənədlər də bunu sübut edir.

Gədəbəy misəritmə zavodunun arxiv fondunda bu müəssisənin ötən əsrin 60-cı illərindən 1916-cı ilə qədərki fəaliyyəti barədə alman dilində aparılmış yazışmalar saxlanılır. Muzeyin eksponatları arasında mədən fəhlələrinin işlətdikləri çıraqlar, iş alətləri, fotoşəkillər, Simenslər sülaləsini təmsil edən sənədlər, Gədəbəy mədənlərinin sxemləri vardır. Burada maraqlı bir əşyayi-dəlil də var-şərab daşınması üçün palıddan gözəl bir çəlləkdir. Ancaq əslində bu gizli saxlanc rolunu oynayıb, belə ki, çəlləyin aşağı hissəsi qiymətli əşyalar və qızıl kərpicləri ölkədən çıxarmaq üçün nəzərdə tutulub, üst hissəyə isə qum tökülür və beləliklə, şərab çəlləyi təsəvvürü yaradılırdı. Simens qardaşları quberniya paytaxtı Gəncədən 43 kilometrlikdə Daşkəsən dəmir mədənlərinə də sahib idilər.

Azərbaycanda kapitalizmin inkişafı, Bakıda neft sənayesinin coşqun yüksəlişi alman mənşəli insanların buraya axını ilə nəticələnmişdi. Almaniyanın özündən, Volqaboyu rayonlardan, mərkəzi Rusiyadan almanlar koloniyalar şəklində buraya gəlirdilər. Bundan başqa orduda, dövlət müəssisələrində ruslaşmış almanlar da üstünlük təşkil edirdilər.

Demokratik mədəniyyətin inkişafında, nailiyyətlər ilə yanaşı neqativ hallar və obyektiv çətinliklər də var idi. Burjuaziyanın inkişaf etdiyi kapitalist cəmiyyətində bir hissəsinin özünün «status quo»nu saxlamaq istəyi ilə bağlı yaradıcılığa əks olan konformizm mədəniyyətdə durğunluğa, hətta iflasa gətirib çıxardırdı. Buna bir çox xalqların «ümumi əməyinin» nəticəsi olan maddi və mənəvi dəyərlərin bölüşdürülməsindəki qeyri bərabərlik aid idi.

Bu əksdurmaların sərtlənməsi çoxsiyasətli kapitalizmin inkişafına köməklik etdi. Bununla belə inhisarın təhsili ilə bağlı kapitalizmin əks rəyi ardıcıllıq baxımından mədəniyyətin demokratikləşməsi ilə çıxardılırdı. O özünün təcəssümünü ümumi seçki hüququnun, antiinhisar və dünya yaradıcılığı siyasətində, əhalinin effektli sosial müdafiəsi sistemində, hökumətin parlamentin qarşısında məsuliyyətində və dövlətin digər yeni qaydalarında tapmışdır. Xalqın sosial aktivliyinin inkişafının güclü faktoru elm və təhsilin inkişafı idi. Təhsili az olan, intellektual baxımdan zəif inkişaf etmiş, mədəni olmayan insanlara proqresiv inkişaf etmiş kapitalizmin maraqlarına əks olan qul psixologiyasının mənbəyi kimi baxılır. Bundan irəli gələrək, XIX əsrin sonlarında «etik ümumilikdə» adlanan çərçivədə əmək və kapitalın, etik tərbiyə və siniflərin əməkdaşlığının, ümumi mədəniyyətin inkişafı yolu ilə ABŞ və Avropa liberal burjuaziyasının sosial əksdurmanın azaldılmasına istiqamətlənmiş səyini dəyərincə qiymətləndirmək lazımdır. Bu məqsədlə onun tərəfindən yaradılmış klublar vahid mədəniyyət çərçivəsində dini və siyasi həyat tərzindəki fərqlər baxımından etik mədəniyyət cəmiyyətləri və settelmenlər xidmət edirdilər. Bu fəaliyyət xalqın sosial psixologiyasına pozitiv təsir etdi və bütün cəmiyyətin mədəni inkişafına köməklik etdi. Demokratik mədəniyyət kapitalist cəmiyyətinin vahid «yüksək mədəniyyəti» formalaşması yolu ilə çətin daxili siyasi problemlərin həllində vacib vasitəyə çevrildi.

Yeni zamanın mədəniyyətinin inkişafının hakimi üçlü birlik elm, təhsil və incəsənət olmuşdur. Özlərində intellektual gücü birləşdirərək, dünya elm xadimləri həqiqətə, insanın yaxşı gələcəyinə yol açırdılar. Təhsil elmi biliklər əsasında peşəkar mütəxəssislər hazırlayırdı, yüksək mədəniyyət isə

bu biliklə kütləni təmin edirdi. Mədəni inkişaf üçün gət-gedə özündə yüksək intellektuallığı, sosial aktivliyi, emosional varlığı və humanizmi cəmləşdirən insan şəxsiyyətinin formalaşmasına istiqamətlənmə xarakterik olurdu. Bu cür yanaşma Q. Mannın şəxsiyyətin harmonik inkişafını nəzərdə tutan «absalyut insanının» müəyyən edilməsinə uyğun idi.

Mədəniyyətin elmi anlamında, onun sosial institutlarının və dünya mədəniyyətinin inkişafının qanunvericiliyinin öyrənilməsində XIX əsrdə tarixi dəyərli rolu pozivitizm oynamışdır. İngilis tarixçisi Henri Tomas Boklyanın, alman tarixçisi Karl Lamprextin və digər alimlərin mədəniyyətin mahiyyətinin geniş anlamının fərqli baxımdan əməkləri tarixi insanın, cəmiyyətin, dövlətin inkişafında sivilizasiyanın inkişafının qurulmasında mədəniyyətin rolu ilə yeni biliklərlə çoxaltmışdır. Yeni zamanın demokratik mədəniyyətinin inkişafında bədii ədəbiyyat və publisistika, əsasən də kritik tənqid əsasında qurulmuş əsərlər qiymətsiz məna daşımışdır. Balzak və Dikkens, Puşkin və Qoqol, Tolstoy və Dostayevskiy, Stendal və Qolsuorsi insanların qəlblərinə girərək ətraf dünyanın real anlamına köməklik edirdilər və insan cəmiyyətinin proqresiv yenidən yaranmalarını stimullaşdırırdılar.

Təəssüf ki, müasir sivilizasiya çərçivələrində insan inkişafına Əqlin, Biliyin və Xeyrin mədəniyyətdə yaradıcı gücü ilə yanaşı, əvvəlki kimi dağıdıcı qüvvələr olan Fəlakət, Kobudluq və Şər təsir göstərirdi. Bütövlükdə amerikan sənətşünası D. Redcin şizofrenik adlandırdığı iyirminci əsr üçün inkişafın əks məntiqlik xarakterikdir. Bu bilik və kobudluq, individualizm və kollektivizm, millətpərəstlik və internosionallıq, xalqın xoşbəxtliyi və əziyyəti, beynəlxalq həmrəylik və hərbi qarşıdurma arasındakı əksdurmadır. Bu Xeyir və Şər, demokratiya və diktatura, ideologiyanın əks mübarizəsi, hərəkət və bloklar arasındakı mübarizədir. Özündə müxtəlif sosial siyasi sistemləri və mədəniyyətləri birləşdirərək müasir sivilizasiya iki dünya və çoxlu lokal müharibələr və konfliktlər yaşamışdır. Əhalinin yaşayışının sevinci ekoloji fəlakətlər, xəstəliklər və cinayətkarlıqlar, kasıbçılıqla, milyonlarla insanın qeyri-bərabər hüququ ilə korlanırdı.

İnsanlığı elmi açılışlarla və bədii əsərlərlə varlandıran demokratik mədəniyyət XX əsrdə özünün həddi-buluğ yaşına çatdı. Bu onunla şərtlənmişdir ki, sivilizasiyalı ölkələrin müasir mədəni siyasəti ayrı-ayrı kütlələrin deyil, bütün xalqın marağına uyğun qurulur. Belə siyasət dünya sənətşünaslıq elminin nailiyyətlərini və dünya mədəniyyətinin, sivilizasiyanın praktik təcrübəsini nəzərə alır.

**Ədəbiyyat**

1. Культурология. Fuad Məmmədov, Bakı 2006.
2. Tətbiqi kulturologiya. Azərbaycan Dövlət İncəsənət Universiteti, dərslik Bakı 2004.

**Təqdim etdi: ADMİU-nun kulturologiya fakültəsi - 10.04.2007.**
**Rəyçi: fəlsəfə elmləri doktoru A.Əlizadə.**

**Summary**

The history of the world culture confirms that the development of the culture of peoples goes through Good and Bad, Affability and Inimical, Light and Dark, unindepended on their religion, life stile or social status.

**Резюме**

Динамика развития страны определяется по параметром культурологических аспектов, который дает импульс развитие всех отраслей.